

YAĞMUR ARZU NURİ

## SÖZ ATƏŞİNDƏ

Yaşamaq yanmaqdir deyən şairə,
Haqq verıb yanmışam söz atəşində.
Şeiri müqəddəs tutub həmişə,
Demişəm... Yansan da, döz atəşində.

Özüm mat qalmışam mən bu hikmətə,
Alov axtarmışam köz atəşində.
Soyuq baxışlardan, gözlərdən qaçıb,
Yenə qızınmışam söz atəşində.

Sevən ürəklərdə oxunmaq üçün,
Züleyxa yaşandı öz atəşimdə.
Qəlbə nəgmə kimi toxunmaq üçün,
Toy-büsat yarandi söz atəşində.

## SÖYLƏ GÖZLƏRİNƏ, YADA BAXMASIN

Qurban olum gözlərinin rənginə,
Söylə gözlərinə belə axmasın.
Dağ çəkməsin ust-üstündən sinəmə,
Söylə gözlərinə, yada baxmasın.

Gözlərində gülüş əbədi qalsın,
Sevgi piyaləmiz sevinclə dolsun.
Gözün sevgimizin məbədi olsun,
Söylə gözlərinə, yada baxmasın.

Sevgi hər cəzaya dözdü dedilər,
Şairin silahı sözdü dedilər.
Ürəyin aynası gözdü dedilər,
Söylə gözlərinə, yada baxmasın.

Gözlərin gözümün önundən getmir,
Sənlə də sənsiz də bu hicran bitmir.
Hər gün mənə baxsa, yenə bəs etmir,
Söylə gözlərinə, yada baxmasın.

Sən mənim tək eşqim qəlb atəşimsən,
İçimdə tutduğum son nəfəsimsən.
Heç kim yox, bir Tanrım, bir sən bəsimsən.
Söylə gözlərinə, yada baxmasın.

## MƏN DEYİLƏM

Mən adlı mən yoxam... məni səsləmə,
Bir vaxt nida idim, ismə dönmüşəm.
Məndəki sənini geri istəmə,
Mən ruhən ölüyəm, cismə dönmüşəm.

Mən adlı mən yoxam, məni səsləmə,
Yanıb köz olmüşam, külə dönmüşəm.
Yaş tək süzülmüşəm sevən gözlərdən,
Damla-damla dolub selə dönmüşəm.

Mən adlı mən yoxam, məni səsləmə,
Saçında agaran telə dönmüşəm.
Dözümüm qalmayıb sənsiz günlərə,
Küləklə sovrulan yelə dönmüşəm.

Mən adlı mən yoxam, məni səsləmə,
Üzüyündən düşmüş qaşa dönmüşəm.
Hər gün ağlamışam nakam sevgimə,
Param-parça olan daşa dönmüşəm.

Mən artlq deyiləm özümdəki mən,
Tənha bir agacam içdən çürüyən.

Gülüşü dodaqda qübara dönən,
Qönçəsi qurumuş gülə dönmüşəm.

## QORXURAM

Bir gün gözlərini çəkərsən məndən,
Gözlərin yad gözə baxar... qorxuram.
Mənim saf sevgimi atib qəlbindən.
Qəlbin başqasını sevər... qorxuram.

Bir gün unudarsan mənim adımı,
Dilin başqa bir ad deyər... qorxuram.
Bir gün dodaqların təbəssüm dolu,
Basqa birisinə gülər... qorxuram.

Bir gün uzaq düşər məndən məhəbbət,
Birdən sən olmazsan ömrümə qismət.
Əbədi köç edər sevgimə həsrət,
Qismətim pozular... deyər qorxuram.

Düşüncələr gedir neçə gümana,
Bir gün yolum düşər çənə-dumana.
Bir gün sevgi adlı gözəl ünvana,
Gedib çatanmaram... hədər qorxuram.

Hər dəqiqə, hər an qorxu çəkirəm,
Birdən... sevgi bagım viran edərsən.
Birdən... həyatımdan çıxıb gedərsən,
Sənlə sənsizlikdən bezər... qorxuram.

## NİYƏ DÖNMÜSƏN?

Özgə dodaqlarda qalıb öpüşün,
Özünü hamıdan xöşbəxt bilmisən.
Sənə xoş idimi belə gedişin,
Xoş idi? Bəs onda niyə dönmüsən?

Əlində yad əlin izləri qalıb,
Baxışında hər gün tumar çəkdiyin
Hansı qadınınsa gözləri qalıb.
Bu yad baxışlarla niyə dönmüsən?

Yandırıb qəlbimi, kül etdin məni,
Məndən üstün tutdun yadı-özgəni.
Heç vaxt bilməmisən mənim qədrimi,
Kül olmuş qəlbimə niyə dönmüsən?

Sevdamı ürəkdə qor eləmisən,
Səninçün bulud tək dolan gözümü
Hər gün ağlamaqdan kor eləmisən.
İndi kor sevdama niyə dönmüsən?

Məndən üz çevirib getdiyin andan,
Mən də uzaq durdum doğmalarımdan.
Mənim eşq dünyamda bitmisən tamam,
Bitmiş bir sevdaya niyə dönmusən?

Ömrün baharını yelə vermisən.
Sənlə keçirdiyim xöşbəxt anları,
Xöşbəxt günlərimi qəmə vermisən.
Ömrün payızında niyə dönmüsən?

Mən ki unutmuşdum sənli günləri,
Sən məni tərk edib gedəndən bəri.
Tənhalığım olub könül həmdəmi,
Bu tənha dunyama niyə dönmüsən?

## BİR VAXT...

Bir vaxt arxam idin, mənim dağımdın,
İndisə sinəmə çəkilən dağsan.
Mən sənin eşqinlə pərvazlanırdım,
İndi pərvazımı məndən almısan.

Bir vaxt varlığından qüvvət alardım,
İndisə varlığın qüvvəmi alır.
Bir vaxt yollarıma nur səpən eşqin,
İndi başqa qəlbdə çıraq yandırır.

Bir vaxt şirin idi, bal idi dilin,
Hər şirin sözünə üzüm gülərdi.
Bir vaxtlar səsinlə sevinən qəlbim,
İndi deyir: -"Kaş heç eşitməyəydi"...

Bir vaxt həyatımın ilk nübarıydın,
İndisə deyirəm: "Sən qatilimsən".
Bir vaxt deyərdim ki, hara gedirsən?
İndi soruşuram... "Niyə gəlmisən?"

Bir vaxt sevgi vardı qəlbimdə sənə,
Görmədim o böyük sevgimdən bəhər.
Bəlkə də -"Sevirəm"- deyərdim yenə...
Heyif, boğazımi tutubdu qəhər.